# Qarabağ turizm məkanına çevriləcək

***Azərbaycanın Vətən müharibəsində qazandığı tarixi Qələbədən sonrakı fəaliyyəti xalqımızın qurub-yaratmaq əzmini də yüksəldib. Belə ki, Qarabağda bölgə iqtisadiyyatının dirçəldilməsi yaxın gələcəkdə bu diyarın yenidən bütün Cənubi Qafqazın inkişaf edən mədəniyyət və turizm mərkəzlərindən olacağını deməyə əsas verir. Prezident İlham Əliyevin qətiyyəti və Azərbaycan Ordusunun rəşadəti sayəsində düşmənin diz çökdüyü Vətən müharibəsində Qarabağın və ətraf rayonların işğaldan azad olunması ölkənin turizm potensialını daha da artırıb. Qarabağın əlverişli iqtisadi-coğrafi mövqeyə, zəngin təbii ehtiyatlara, nadir iqlim xüsusiyyətlərinə malik olması, münbit torpağı, flora və faunası ölkə turizm sənayesinin inkişafı üçün yeni üfüqlər açıb.***




Hələ işğaldan əvvəl Qarabağda, işğala məruz qalmış digər rayonlarda turizmin inkişafı ilə bağlı müəyyən işlər görülmüşdür. Lakin indi bu yerlərdə yeni turizm infrastruktur layihələri reallaşdırılmağa başlanmışdır. Bu gün işğaldan azad olunmuş Laçın və Kəlbəcərin unikal relyef müxtəlifliyi burada həm yay, həm də qış turizminin perspektivlərini artırır. Kəlbəcər rayonu Cənubi Qafqazda turizmin inkişafı baxımından azsaylı regional ərazilərdən biri hesab edilir. Buranı yayda və qışda, həm tarixi, dini, həm də müalicəvi cəhətdən turizm istiqamətində inkişaf etdirmək mümkündür. Mütəxəssislərin fikrinə görə, təkcə Kəlbəcərin İstisu sanatoriyasına görə bu rayona turistlərin böyük maraq göstərəcəyi şübhəsizdir. Bunadan başqa, Kəlbəcərin tarixi mədəni abidələri də turizmin inkişafında əhəmiyyətli rol oynayacaq. Uca dağları, şış qayaları, yaşıl meşələri, gur çayları buranı turistlər üçün cəlbedici məkana çevirəcəkdir.

Füzuli rayonu yaxınlığında yerləşən Azıx mağarası turistləri cəlb edəcək məkanlardandır. Turist marağı baxımından dünyada çox populyar olan Xarıbülbülü Şuşada canlı olaraq seyr etmək Qarabağın turizm cazibədarlığını xüsusi olaraq artırır. Vaxtilə Şuşa və Ağdam rayonlarında yerləşən məşhur "Şuşa", "Gülablı" sanatoriyaları, Şuşanın istirahət evləri, məktəblilərin yay tətilində dincəlməsini təmin edən düşərgələr görülən yenidənqurma işlərindən sonra öz füsunkar görkəmlərini tamamilə dəyişəcəkdir. Şuşa şəhərinin tarixi abidələri, özünəməxsus arxitekturası yeni turizm marşrutlarının yaradılmasına imkan verir. Şuşada mayın 12-də "Xarıbülbül" otelinin, avqustun 29-da isə "Qarabağ" otelinin yenidənqurmadan sonra açılışı olmuşdur. Otellər qonaqların qalması və rahat istirahət etməsi üçün bütün zəruri infrastrukturla təchiz olunub. Bu cür obyektlərin istifadəyə verilməsi Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşanın turizm potensialının möhkəmləndirilməsində çox mühüm rol oynayacaq.

Qarabağın unikal təbii iqlim xüsusiyyətləri ərazidə aqroturizmin və kənd-yaşıl turizmin inkişafına da imkan verir. İşğaldan azad edildikdən sonra burada kənd infrastrukturunun sürətlə yenilənməsi, normal həyat üçün bütün zəruri şəraitin yaradılması bölgə kəndlərini turistlər üçün sevimli istirahət məkanı edəcək. Ermənilər bu illər ərzində işğal altında olan Qarabağ və ətraf rayonları dağıdaraq, infrastrukturu məhv etmişlər. Bütün bunlara baxmayaraq, yaxın gələcəkdə Qarabağ Azərbaycanın əsas turizm bölgəsinə çevriləcək.

Xocavəndin Hadrut qəsəbəsinin turizm imkanları da geniş və çoxşaxəlidir. Qəsəbədə və onun ətrafında yerləşən yaşayış məntəqələrində çoxsaylı tarixi-mədəni abidələr, o cümlədən qədim alban məbədləri mövcuddur. Onlardan faydalanma qəsəbədə turizm sənayesinin inkişafı üçün mövcud olan potensialları daha da genişləndirir. Böyük turizm potensialının mövcudluğu Hadruta qısa zamanda iqtisadi aktivliyi bərpa etməyə imkan verəcəkdir.

Qarabağın turizm potensialına ekoturizm, dağ turizmi, qış turizmi, ov turizmi, sağlamlıq turizmi kimi növlər daxildir.

Hazırda bütün dünyada turizm iqtisadiyyatın gəlirli sahələrindən biri sayılır. Ölkəmizin turizm potensialını dəyərləndirərkən qeyd etmək lazımdır ki, Azərbaycan turizm sənayesinin inkişafı üçün zəngin ehtiyatlara, əlverişli iqtisadi-coğrafi mövqeyə malikdir. Belə ki, Avropanı Qafqaz və Mərkəzi Asiya ölkələri ilə birləşdirən hava və dəniz daşımaları, magistral avtomobil və nəqliyyat yolları ölkəmizdən keçir. Həmçinin, Azərbaycan nadir təbii iqlim xüsusiyyətlərinə malik bir ölkədir, onun fauna və florası Qafqazın başqa respublikalarına nisbətən xeyli zəngindir. Azərbaycan florasının rəngarəngliyi ölkəmizə ilk dəfə gələn turistləri də heyran edir.



Bu il Birləşmiş Ərəb Əmirliklərin Dubay şəhərində keçirilmiş "ATM 2021" beynəlxalq turizm sərgisində ilk dəfə olaraq Azərbaycanın, işğaldan azad edilmiş Qarabağ bölgəsinin, xüsusilə Şuşa şəhərinin turizm potensialı təbliğ olunmuşdur. Tədbir iştirakçılarına işğaldan azad edilmiş ərazilərin turizm potensialı, mövcud və inkişaf etdirilən turizm məhsulları və yeni turizm təklifləri barədə məlumatlar təqdim edilmişdir.

Maddi-mədəniyyət abidələrimiz erməni silahlı qüvvələri tərəfindən dağıdılsa da, meşələr yandırılaraq ekoloji terror törədilsə də, bu gün həmin ərazilərdə Azərbaycan Prezidentinin fərman və sərəncamları çərçivəsində bərpa işlərinə başlanılmışdır.

Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyev Vətən müharibəsindən sonra işğaldan azad edilmiş Ağdama, Zəngilana, Füzuliyə, Cəbrayıla, Qubadlıya, Şuşaya və Hadruta səfərlərində dəfələrlə vurğulamışdır ki, biz erməni vandallarının darmadağın etdiyi şəhər və kəndlərimizi cənnətə çevirəcəyik. Xocavəndin Hadrut qəsəbəsinin turizm imkanları da geniş və çoxşaxəlidir. Qəsəbədə və onun ətrafında yerləşən yaşayış məntəqələrində çoxsaylı tarixi-mədəni abidələr, o cümlədən qədim alban məbədləri mövcuddur. Onlardan faydalanma qəsəbədə turizm sənayesinin inkişafı üçün mövcud olan potensialları daha da genişləndirir. Böyük turizm potensialının mövcudluğu Hadruta qısa zamanda iqtisadi aktivliyi bərpa etməyə imkan verəcəkdir.

Prezident İlham Əliyev oktyabrın 9-da Xocavənd rayon ictimaiyyətinin nümayəndələri ilə görüşü zamanı demişdir : "Xocavənd rayonunun turizm potensialı çox genişdir. Bura təbiətcə çox zəngin məkandır, hər tərəf dağlar, meşələr, çaylar, cənnətə oxşayan bir yerdir. Tarixi abidələr, körpülər, eyni zamanda, məşhur Azıx mağarası, Tağlar mağarası – bunlar burada yerləşir ... Keçən dəfə mən burada olanda o mağaranın girişinə qədər qalxdım. Tarixi abidələrlə zəngin olan bu yerlərdə turizm mərkəzləri, otellər tikmək üçün azərbaycanlı və xarici investorları da dəvət etmək istəyirəm. Çünki dünyada Xocavənd kimi, Hadrut qəsəbəsi kimi gözəl səfalı yerlər çox azdır".

***M.MÜKƏRRƏMOĞLU,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2021.- 15 dekabr.- S.11.